**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

**DOI:10.59610/bbu3.2023.3.9**

*Talıbova Nigar Eldar qızı,*
*doktorant,*
*Bakı Dövlət Universiteti,*
*E-mail: dosent1966@mail.ru*
*© Talıbova N.E., 2023*

**UOT - 339.923**

# XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİ VƏ ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ ROLUNUN ARTIRILMASI

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – xarici ticarət əlaqələrinin genişləndirilməsi və bu əlaqələrin ölkənin iqtisadi təhlükəsizlik sistemində rolunun müəyyənləşdirilməsidir.

**Tədqiqatın metodologiyası** – ölkənin xarici ticarətin genişləndirilməsi istiqamətində müxtəlif yanaşmaların nəzərdən keçirilməsi, iqtisadi-riyazi, statistik, elmi abstraksiya, amillər üzrə təhlil və digər təhlil metodlarından istifadə etməklə bu sahədə mövcud vəziyyətin öyrənilməsidir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti –** tədqiqat araşdırmalarından əldə edilən nəticələr xarici ticarət əlaqələrinin ölkənin iqtisadi təhlükəsizlik sistemində rolunun artırılması baxımından əhəmiyyətli ola bilər.

**Tədqiqatın nəticələri** – ixrac olunan məhsulların çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi, ixracın əmtəə-coğrafi strukturunun yaxşılaşdırılması, beynəlxalq əməkdaşlığın mütərəqqi formalarından istifadə etməklə ixracın strukturunun təkmilləşdirilməsi, xarici ticarətin koordinasiyası və sənaye ixracının təşviqi və s. tədbirlərin görülməsi məqsədəuyğundur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi –** tədqiqat işində bir sıra yerli və xarici tədqiqatçıların fikirlərinə istinad edilmiş, xarici ticarət əlaqələrinin genişləndirilməsi və bu əlaqələrin ölkənin iqtisadi təhlükəsizlik sistemində rolunun artırılması üzrə tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** iqtisadi təhlükəsizlik, xarici ticarət, idxal, ixrac, xarici ticarət əlaqələri (XTƏ), xarici ticarət fəaliyyəti (XTF), istehsal.

## G İ R İ Ş

İqtisadi təhlükəsizliklə bağlı problemlərin həlli dövlətin ən önəmli funksiyalarından biridir. Dövlətin mövcudluğu və inkişafına təhdid yarada biləcək halların qarşısını almaq üçün iqtisadi təhlükəsizlik təmin olunmalıdır. Bunun üçün ən mühüm amil xarici ticarət əlaqələrinin (XTƏ) genişləndirilməsidir. XTƏ, Azərbaycanın iqtisadi yüksəlişində və inkişafında əsas amilə çevrilir. Xarici ticarət imkanlarından real istifadə strateji məqsəd olan innovativ inkişaf yoluna keçidə kömək edir, daxili istehlak bazarını şaxələndirir və bazarın idarə olunmasının müasir üsullarından istifadəni təşviq edir. Bütün bu kimi hallar məqalənin mövzusunun aktuallığına dəlalət edir.

**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

**Tədqiqatın əsas məzmunu**

Ölkənin suverenliyinin təminatçısı, cəmiyyətin normal və sabit fəaliyyət göstərməsinin, uğurlar əldə etməsi şərtlərindən ən əsası kimi iqtisadi təhlükəsizlik sistemi çıxış edir. İqtisadi təhlükəsizlik iqtisadiyyatın dövlətin, cəmiyyətin və fərdin ən önəmli fəaliyyət sahələrindən biridir. İqtisadi təhlükəsizlik təmin olunmazsa, milli təhlükəsizlikdən söhbət belə gedə bilməz. Odur ki, dövlətin ən prioritet fəaliyyət sahələrindən biri iqtisadi təhlükəsizlik hesab olunur və bu, milli təhlükəsizliyin digər bütün elementləri ilə sıx bağlıdır. Beləliklə, milli təhlükəsizliyin bütün elementləri isə iqtisadi amillərlə bağlıdır. Məsələn, iqtisadi təhlükəsizliyin, sabitliyin olmadığı bir şəraitdə dövlətin sosial, ictimai, hərbi və digər təhlükəsizlik formalarından danışmağa dəyməz [1, s.3].

Ölkədə iqtisadi təhlükəsizliyin təmin edilməsində məqsəd dövlətin sabit və dayanıqlı inkişafına nail olmaq və ölkə əhalisinin rifahını yüksəltməkdir. Belə bir vasitə aşağıdakılar baxımından əhəmiyyətlidir:

- dövlətin iqtisadi suverenliyinin gücləndirilməsi;
- iqtisadiyyatın müxtəlif təhdidlərin təsirinə davamlılığının artırılması;
- iqtisadi artımın təmin edilməsi;
- iqtisadiyyatın inkişafının elmi-texniki potensialının dünya səviyyəsində dəstəklənməsi və onun rəqabət qabiliyyətinin artırılması və s.

İqtisadi təhlükəsizlik vəziyyətinə nail olmaq üçün bütün subyektlərin iqtisadi maraqlarını qorumaq, ölkənin iqtisadi potensialının tam reallaşdırılmasını təmin edəcək, iqtisadi imkanları genişləndirəcək əlverişli şərait yaratmaq lazımdır. İqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədlərinə nail olmağa çalışan dövlət bir sıra ümumi vəzifələrə əməl etməlidir.

Ölkədə iqtisadi təhlükəsizliyinin təmin edilməsi vəzifəsi, vətəndaşların önəmli və həyati mənafelərinin bütün dövlət orqanları tərəfindən iqtisadi, hüquqi və inzibati tədbirlərlə təminatından, ölkənin BƏB-də iştirak səviyyəsindən, onun dünya təsərrüfat sisteminə bərabərhüquqlu inteqrasiyasından, müxtəlif məsələlərdə ölkənin xarici dövlətlərdən asılılığının aradan qaldırılmasından və digər məsələlərdən asılıdır. Qloballaşma proseslərinin dərinləşdiyi bir şəraitdə Azərbaycanda iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizminin əsas elementləri sırasında aşağıdakıları ayırmaq olar:

- Azərbaycanın strateji maraqları nəzərə alınmaqla xarici ticarət əlaqələrinin (XTƏ) tənzimlənməsi və inkişafı;
- ixrac potensialının inkişaf etdirilməsi yolu ilə xarici ticarətin sahə strukturunun təkmilləşdirilməsi, habelə ölkədə daxili istehsalı stimullaşdırmaqla idxalın məhdudlaşdırılması [2, s.19]. Bu kimi vəzifələr ölkədə iqtisadi təhlükəsizlik baxımından böyük önəm daşıyır. Odur ki, bu istiqamətlərdə araşdırmaların aparılması zəruridir.

Məlumdur ki, xarici iqtisadi fəaliyyətin (XİF) müxtəlif növləri vardır ki, onlar arasında ən geniş yayılanı xarici ticarət fəaliyyətidir (XTF). XTF - məhsulların, xidmətlərin, işlərin beynəlxalq mübadiləsi mərhələsində reallaşdırılan sahibkarlıq fəaliyyətidir. Bəzi tədqiqatçılar hesab edirlər ki, bu fəaliyyət həm də informasiya mübadiləsini, intellektual fəaliyyətdə əməkdaşlığı təmin edir. XTF mərhələsində xarici ticarət əməliyyatları hazırlanır və reallaşdırılır. Dünya bazarında investisiya fəaliyyətində bu cür əməkdaşlıq XİF-i reallaşdırmaq üçün səmərəli üsuldur. O, milli və xarici müəssisələrin qarşılıqlı əməkdaşlığını səciyyələndirir.

İqtisadi təhlükəsizliyin təmin edilməsinə təsir etmək üçün XTF-nin səmərəliliyinin artırılması problemi tədqiqatçılar və praktiklər arasında böyük maraq doğurur. XTF-nin səmərəliliyini qiymətləndirmək üçün vahid metod yoxdur. XTF-nin qiymətləndirilməsi üsullarının istifadəsi məlumatların sistemləşdirilməsini və konsolidasiyasını nəzərdə tutur ki, bu da təh-

AUDİT 2023, 3 (41), səh. 85-96.
AUDIT 2023, 3 (41), pp. 85-96.
АУДИТ 2023, 3 (41), стр. 85-96.

lilin sadəliyi və aydınlığını nəzərdə tutan qiymətləndirmə metodlarının tətbiqi baxımından bəzən çətin görünür.

Bazar şəraitində istənilən şəxs (qanunla məhdudlaşdırılan hallar istisna olmaqla), o cümlədən dövlət qurumları, maliyyə təşkilatları və ayrı -ayrı şəxslər XTF göstərmək hüququna malikdir. Ənənəvi olaraq XTF dövlətin maliyyə fəaliyyətinin istiqamətlərindən biri olaraq qəbul edilir. Bu yanaşma, ilk öncə onunla bağlıdır ki, dövlət XTF-ni reallaşdırarkən, ixrac və idxalın həcmini tənzimləməyə yönəlmiş vergilər, subsidiyalar, tariflər və qeyri-tarif alətləri yaratmaqla xarici ticarətin həcmini tənzimləyir. XTF, milli iqtisadiyyatın təhlükəsizlik vəziyyətindən asılı olaraq, ixracın həcmini stimullaşdıran və idxalın həcmini məhdudlaşdıran bir xarakterə malik ola bilər. Bu vəziyyətdə milli istehsalçıların xarici rəqiblərin təsirindən qorunması üçün proteksionizm siyasətindən isttifadə olunur. Bir ölkə milli bazarın miqyasını genişləndirməkdə və xarici ticarət əməliyyatlarını liberallaşdırmaqda maraqlıdırsa, bu halda söhbət azad ticarət siyasətindən gedir. Hər halda, XTF-nin reallaşdırılması ölkənin inkişafının əsas hədəflərinə uyğun olmalıdır [6, s.19].

Uzunmüddətli perspektivdə XTF-nin məqsədi qlobal əmək bölgüsündə səmərəli iştirak və milli iqtisadiyyatın qlobal rəqabət qabiliyyətini artırmaq əsasında ölkənin dünya iqtisadiyyatında lider mövqeyə nail olmaq üçün şərait yaratmaqdır. Bu məqsədə nail olmaq aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- ölkənin intellektual xidmətlər, yüksək texnologiyalı və yüksək emal dərəcəsi olan mallar üzrə qlobal əmək bölgüsündə ixtisaslaşması;
- enerji resurslarının dünya bazarlarına çatdırılmasında lider mövqelərə nail olunması;
- kənd təsərrüfatı, nəqliyyat sektoru və xammalın emalı sahəsində mövcud rəqabət üstünlüklərinin reallaşdırılması;
- sənaye məhsullarının ixracatçısı kimi ölkənin dünya bazarında mövqeyinin gücləndirilməsi, kənd təsərrüfatı məhsulları və ərzaq idxalından asılılığının azaldılması;
- istehsal sənayesinin qlobal rəqabət qabiliyyətinin təmin edilməsi;
- dünya ticarət mərkəzləri ilə sabit və şaxələndirilmiş əlaqələrin qurulması;
- qlobal risklərin artdığı və intensivləşdiyi bir şəraitdə uzunmüddətli dövr üçün iqtisadiyyatın inkişafında davamlılığının təmin edilməsi;
- qlobal problemlərin həllində və bütün dünya üzrə iqtisadi nizamın formalaşmasında ölkənin rolunun gücləndirilməsi.

Xarici ticarət anlayışının özünə gəlincə, bu, istehsalın, məşğulluğun səviyyəsinə və istənilən dövlətin inkişafının digər makroiqtisadi göstəricilərinə təsir göstərir. Belə ki, xaricdə yerli mallara tələbatın artması nəticəsində ixrac olunan sənaye sahələrində istehsalın artımı ölkənin ÜDM-ni artırır. Əksinə, idxalın artması daxili tələbatın bir hissəsini başqa ölkələrdə istehsal olunan mallara yönəldir və bununla da yerli istehsal üçün stimulları azaldır ki, bu da son nəticədə ÜDM-in səviyyəsinin aşağı düşməsinə səbəb olur. Dünya ölkələrinin müasir xarici siyasət maraqları və problemləri arasında məhz xarici ticarət əsas yer tutur. Odur ki, onun mahiyyətinin, inkişaf dinamikasının və müasir strukturunun öyrənilməsi dövlətin xarici siyasətinin, onun inkişaf proqramlarının müəyyənləşdirilməsi üçün mühüm elementdir [8, s.433].

Aşağıdakı məqamlar xarici ticarətin zəruriliyini və əhəmiyyətini əks etdirir.

1. İxtisaslaşma və əmək bölgüsü. Bəzi ölkələr təbii sərvətlərlə zəngindir. Belə ölkələr inkişaf etmiş ixtisaslı işçi qüvvəsi olan ölkələrdən xammal ixrac edir və hazır məhsul idxal edir.

2. Resursların optimal bölüşdürülməsi və istifadəsi. Resurslar yalnız ən çox gəlir gə-

AUDİT 2023, 3 (41), səh. 85-96.
AUDIT 2023, 3 (41), pp. 85-96.
АУДИТ 2023, 3 (41), стр. 85-96.

tirəcək malların istehsalına yönəldilir.

3. Qiymət bərabərliyi. Xarici ticarət tələb və təklifi sabit saxlayır ki, bu da nəqliyyat və satış xərclərinə endirim etməklə əldə edilə bilir.

4. Keyfiyyətli və standart məhsullarla təminat. Mallara tələbi qorumaq və artırmaq üçün istehsalçılar həmin malların yüksək keyfiyyət xüsusiyyətini saxlamağa çalışmalıdır.

5. İnsanların həyat səviyyəsinin yüksəldilməsi. Yeni və daha keyfiyyətli mallar istehlak etməklə insanlar öz həyat standartlarını yaxşılaşdıra bilərlər.

6. İş imkanlarının yaradılması. Xarici ticarət əmək resurslarının mobilliyini artırmaqla məşğulluq imkanlarının yaradılmasına kömək edir.

7. İqtisadi inkişafın təşviqi. Əsas vəsaitlərin və texnologiyanın idxalı vasitəsilə ölkə iqtisadiyyatın bütün sektorlarında, o cümlədən kənd təsərrüfatında, sənayedə və xidmət sektorunda artım əldə edə bilər.

8. Təbii fəlakətlər zamanı yardım göstərilməsi. Təbii fəlakətlər zamanı zərər çəkmiş ölkələr zəruri malların çatışmazlığı ilə üzləşirlər. Xarici ticarət ölkəyə zərər çəkmiş insanlara kömək etmək üçün ərzaq məhsulları və dərmanlar idxal etməyə imkan verir.

9. Tədiyyə balansının saxlanması. İstənilən ölkə valyuta axınını təmin etmək məqsədilə idxal və ixrac fəaliyyəti ilə məşğul olur.

10. Reputasiya və nüfuz qazanmağa kömək. İxrac edən ölkə beynəlxalq bazarda reputasiya qazanır.

11. Dünyada sülhün təşviq edilməsi.

Xarici ticarət bilik və texnologiya mübadiləsini də təşviq edir.

Dünya iqtisadiyyatında xarici ticarət yerinə yetirdiyi funksiyalar baxımından da əhəmiyyətlidir. Xarici ticarətin əsas funksiyaları bunlardır:

- əmtəələrin istehsalçıdan son istehlakçıya qədər hərəkət etdirilməsi;
- informasiya funksiyası, bu, ixrac olunacaq məhsullara olan tələbat, habelə həmin məhsulların keyfiyyəti haqqında informasiyanın toplanmasına əsaslanır;
- rəqabətin artırılması;
- ölkənin elmi-texniki inkişaf imkanlarının genişləndirilməsi.

Şəkil 1-də xarici ticarətin inkişafının əsas vəzifələri əks etdirilir.




***Şəkil 1. Xarici ticarətin inkişafı üzrə əsas vəzifələr***

***Mənbə: müəllif tərəfindən tərtib edilib***

**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

Xarici ticarət sektorunda dövlət siyasətinin əsas prinsiplərinə aid edilə bilər:

- iqtisadiyyatın innovativ inkişaf yoluna keçirilməsi;
- xarici ticarət sektorunda milli maraqların reallaşdırılmasına fəal dəstək;
- ölkə iqtisadiyyatının açıqlığının təmin edilməsi;
- xarici kapitalın ölkəyə cəlb edilməsi şərtlərinin proqnozlaşdırılması;
- ölkənin təkcə ənənəvi sahələrində deyil, habelə yüksək texnologiyalar və biliklər iqtisadiyyatı sahəsində müqayisəli üstünlüklərin reallaşdırılmasına əsaslanan qlobal iqtisadiyyatda ixtisaslaşması;
- XTƏ-nin coğrafi şaxələndirilməsi;
- beynəlxalq inkişafa kömək etmək üçün sosial, innovativ və texnoloji potensialından istifadə edərək qlobal problemlərin həllində fəal iştirak;
- XTS-nin hazırlanmasında və reallaşdırılmasında biznes ictimaiyyətinin iştirakının genişləndirilməsi.

Xarici ticarətin inkişafının əsas tendensiyaları arasında aşağıdakıları qeyd etmək olar:

- emal sənayesi və xidmətlərin qlobal rəqabət qabiliyyətinə nail olmaqla ixracın dəstəklənməsi və inkişafı;
- xarici texnologiyaların və investisiyaların cəlb edilməsinin stimullaşdırılması;
- xarici malların alınmasının, dövlətin özündə analoqu olmayan innovativ məhsul və xidmətlərin əldə edilməsinin rasionallaşdırılması;
- gömrük rejimlərinin fəaliyyətinin təkmilləşdirilməsi;
- ölkənin qlobal nəqliyyat sisteminə inteqrasiyası və milli iqtisadiyyatın tranzit potensialının reallaşdırılması;
- xarici ticarətdə manatın istifadəsinin genişləndirilməsi;
- ölkədə son məhsul istehsalının yaradılmasına yardım göstərilməsi;
- qlobal enerji təhlükəsizliyinin təmin edilməsində ölkənin rolunun artırılması və neft-qaz məhsulları bazarında öz mövqelərinin möhkəmləndirilməsi və s.

Bu gün xarici ticarətdə iştirak etməyəcək böyük, inkişaf etmiş bir dövləti təsəvvür etmək mümkün deyil. Bacarıqlı şəkildə qurulmuş xarici ticarət dövlətə dünya bazarında üstünlük təşkil edən bir mövqe təmin edir.

Bildiyimiz kimi, ölkənin iqtisadi təhükəsizlik sistemində XTƏ önəmli rol oynayır. XTƏ – dövlətin XİF sahəsində reallaşdıra biləcəyi tədbirlərdən ən önəmlisidir. Bu əlaqələr struktur meyarına görə xarici ticarəti, maliyyə, bank, investisiya, xidmət, informasiya və digər sahələrdə əlaqələri nəzərdə tutur [10, s.10]. XTƏ-lər müəssisələrin, firmaların, bölgələrin və bütövlükdə ölkənin iqtisadi fəaliyyətinin ayrılmaz bir elementidir.

Müasir şəraitdə və gələcəkdə dövlətin müstəqil bölgələrinin dünya iqtisadiyyatı sisteminə effektiv şəkildə daxil edilməsi XTƏ-nin dinamik inkişafını nəzərdə tutur. Ölkənin xarici ticarət sferasına daxil edilməsi ixrac yönümlü müəssisələri dəstəkləmək üçün xüsusi qurumların köməyi ilə milli iqtisadi bazanın inkişaf etdirilməsini, təkmilləşdirilməsini və şaxələndirilməsini nəzərdə tutur. XTƏ ölkəyə innovativ texnologiyaların gətirilməsinə, beynəlxalq standartlarına cavab verən rəqabətqabiliyyətli malların satışı üçün istehsal bazasının yaradılmasına və milli məhsulların satışının həcminin artırılmasına kömək edir.

XTƏ-lərin əsas tərəfləri rezidentlər və qeyri-rezidentlərdir. XTƏ-də məhsulların, işlərin, xidmətlərin ölkənin gömrük sərhədindən keçirilməsi ilə bağlı alqı-satqı əməliyyatlarında fərdi sahibkar kimi qeydiyyata alınmış fiziki şəxslər də iştirak edə bilərlər [9, s.17].

XTƏ-nin nəticələrindən biri də ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına az-çox dərəcədə cəlb olunmasıdır. Ölkənin dünya iqtisadiyyatında iştirakı BƏB-də iştirakını dərinləşdirə-

**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

rək, onun iqtisadi inkişafına və daha səmərəli və dinamik bir iqtisadiyyatın yaradılmasına töhfə verə bilər. XTƏ-lər ölkə iqtisadiyyatının tədricən genişlənməsini nəzərdə tutur ki, bu da milli və dünya iqtisadiyyatlarının qarşılıqlı əlaqəsinin daha sərbəst olacağı şəraitin yaradılmasına gətirib çıxarır.

XTƏ-nin müsbət təsiri yeni sənaye və iş yerlərinin yaradılması, vergi gəlirlərinin artması, elmi-texniki potensialın inkişafı və s.-dir. Mənfi təsir xarici dövlətlərin əks tədbirləri, xarici tərəfdaşlarla ticarət əlaqələrinin çətinləşməsi, ölkənin beynəlxalq aləmdə imicinin pisləşməsi, daxili bazarda malların qıtlığı və ya bahalaşması, keyfiyyətinin aşağı düşməsi və s. ola bilər.

Azərbaycan XTƏ-ni genişləndirmək üçün böyük potensiala malikdir. Bu imkanların səmərəli reallaşdırılması üçün təkcə respublika rəhbərliyinin və bütün xalqın siyasi iradəsi deyil, habelə məqsədyönlü fəaliyyət və Azərbaycanın xarici ticarətinin dərin elmi əsaslarla real modelini reallaşdırmaq lazımdır. Azərbaycanın xarici ticarət siyasəti bir-iki illik deyil, strateji və taktiki vəzifələrin həlli üçün nəzərdə tutulan uzun bir dövrü əhatə etməlidir.

Azərbaycanın açıq iqtisadiyyat şəraitində dünya bazarında öz mövqeyini qoruyub saxlaya bilməsi üçün rəqabət qabiliyyətinin artırılmasına və ixrac məhsullarının keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilməlidir.

XTF-nin tənzimlənməsi və təkmilləşdirilməsinin iqtisadi və inzibati üsulları vardır ki, həmin üsullar Azərbaycanın xarici ticarət potensialının güclənməsində böyük rol oynayır. Lakin buna baxmayaraq, hazır məhsulun ixracının subsidiyalar, maliyyə yardımları, güzəştli kreditlər və s. vasitəsilə stimullaşdırılmasının dövlət üsullarından hələ də tam istifadə olunmur.

Müasir dövrdə Azərbaycanın qarşısında duran prioritet vəzifə milli iqtisadiyyatı mənfi xarici təsirlərdən qorumaqla, iqtisadi inkişaf üçün zəruri şəraiti təmin etməkdir. Ölkədə iqtisadi inkişaf üçün XTƏ inkişaf etdirilməlidir. Bunun üçün milli iqtisadiyyatın səmərəli şəkildə dünya iqtisadiyyatına inteqrasiyası zəruridir. Bu vəziyyət bəzən iqtisadiyyatın güclənməsinə, bəzən isə zəifləməsinə səbəb ola bilər [4, s.106]. Odur ki, XTƏ-ləri elə təşkil etmək lazımdır ki, ölkənin iqtisadi təhlükəsizliyinə xələl gətirməsin.

XTƏ-lər dövlətin iqtisadi təhlükəsizliyinə müsbət təsir göstərir, çünki:

1. ÜDM-in artmasına töhfə verir;
2. Ölkənin investisiya mühitinin yaxşılaşdırılmasına töhvə verir;
3. Digər dövlətlərlə bərabər səviyyədə beynəlxalq texnologiyalara çıxış əldə etməyə imkan verir;
4. Rəqabəti artırır;
5. Ölkə istehsalçıları üçün öz məhsullarının keyfiyyətini artırmaq məqsədilə stimullar formalaşdırır.

Xarici ticarət dövlətin iqtisadi təhlükəsizliyinə mənfi təsir də göstərir. İqtisadi təhlükəsizliyə təhdidlərə qarşı durmaq üçün dövlət və təsərrüfat subyekti səviyyəsində xarici iqtisadi təhlükəsizlik strategiyasının hazırlanması və reallaşdırılması zəruridir.

İqtisadi təhlükəsizliyə xarici ticarət sektorunun yarada biləcək əsas təhdidlər aşağıdakılardır:

1. Xarici ticarət dövriyyəsinin strukturunda idxalın ixracdan yüksək olması;
2. Ölkənin (regionun) strateji məhsulların idxalından asılılığının yüksək səviyyəsi;
3. Malların idxal və ixracı ilə bağlı məhdudiyyətlərin olması;
4. İxrac-idxal əməliyyatlarına gömrük nəzarətinin aşağı səviyyəsi və s.

İqtisadi təhlükəsizliyin xarici ticarət sektorunda təmin edilməsi qeyri-müəyyənlik şəraitində səhv qərarların qəbulu riskini azaldan tədbirlərin reallaşdırılması ilə mümkündür.

**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

İqtisadi təhlükəsizliyin xarici ticarət sektorunda təmin edilməsi sistemi aşağıdakı elementləri əhatə etməlidir:

1) Malların xarici ticarətinin reallaşdırılmasında iqtisadi təhlükəsizliyin təminatı sisteminin konseptual əsaslarını;

2) Malların xarici ticarətinin reallaşdırılmasında iqtisadi təhlükəsizliyin təminatı sisteminin strukturunu;

3) Müvafiq göstəricilər və meyarlar daxil olmaqla, malların xarici ticarətinin reallaşdırılmasında iqtisadi təhlükəsizliyin monitorinqinin vəziyyətini;

4) Ölkənin sistemli və hərtərəfli təhlili əsasında müəyyən edilmiş XTƏ-nin inkişafı üçün milli prioritetlərin müəyyənləşdirilməsi metodologiyasını;

5) Malların xarici ticarətinin reallaşdırılmasında iqtisadi təhlükəsizliyin mövcud vəziyyətinin qiymətləndirilməsi metodologiyasını;

6) Malların xarici ticarətinin reallaşdırılmasında iqtisadi təhlükəsizliyin vəziyyətinin proqnozlaşdırılması metodologiyasını;

7) İqtisadi təhlükəsizliyə qarşı çağırışların, risklərin və təhdidlərin qiymətləndirilməsi metodologiyasını;

8) Malların xarici ticarətinin reallaşdırılmasında iqtisadi təhlükəsizliyin təminatının müasir sisteminin təşkilati və idarəetmə təminatını;

9) Əmtəələrin xarici ticarəti zamanı iqtisadi təhlükəsizliyə qarşı çağırışların, risklərin və təhdidlərin idarə edilməsi sistemini;

10) XTF-də idarəetmə qərarlarının qəbul edilməsinə dəstək sistemini.

XTƏ-nin dövlətin iqtisadi təhlükəsizliyinə təsirini qiymətləndirmək üçün meyarları və onların həddi qiymətlərini nəzərə almaq lazımdır. Hədd dəyərləri kəmiyyət göstəriciləridir, onların əsasında XTƏ-nin iqtisadi təhlükəsizliyə təsiri haqqında nəticə çıxarmaq olar [7, s.205].

XTƏ, əsasən, maddi ehtiyacları ödəmək üçün istifadə olunur. XTƏ ölkənin iqtisadi təhlükəsizlik səviyyəsinin və əhalinin yaşayışının yaxşılaşdırılmasına kömək edə bilir. Hazırda Azərbaycanın bir çox yaxın və uzaq xarici ölkələrlə ticarət əlaqələri dərinləşir ki, bu da XTƏ sahəsində dövlət siyasətinin tənzimlənməsi mexanizminin səmərəliliyinin yüksəldilməsini tələb edir. XTƏ-nin tənzimlənməsi mexanizminin səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətləri ölkənin iqtisadi təhlükəsizliyinin ümumi məqsədlərinə uyğun olmalıdır.

Azərbaycanda XTƏ-nin mövcud vəziyyətini təhlil etmək üçün aşağıdakı cədvələ diqqət yetirək (cədvəl).

***Cədvəl***

**Xarici ticarət iştirakçıları haqqında məlumat**

| | 2011 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Xarici ölkələrin sayı | 149 | 165 | 186 | 187 | 185 | 195 | 183 | 188 | 185 |
| Xarici ticarət iştirakçılarının sayı, o cümlədən: | 8540 | 7159 | 14055 | 16086 | 25123 | 44554 | 45462 | 65147 | 57911 |
| Fiziki şəxslər üzrə | 4697 | 3566 | 8620 | 10073 | 17731 | 35666 | 37211 | 56277 | 48233 |
| Hüquqi şəxslər üzrə, o cümlədən: | 3843 | 3593 | 5435 | 6013 | 7392 | 8888 | 8251 | 8870 | 9588 |
| dövlət sektoru | 290 | 244 | 251 | 243 | 254 | 293 | 267 | 266 | 269 |
| özəl sektor | 3553 | 3349 | 5184 | 5770 | 7138 | 8595 | 7984 | 8604 | 9319 |

***Mənbə: DGK-nın məlumat bazası əsasında müəllif tərəfindən tərtib edilib [12].***

**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

Azərbaycan 2022-ci ildə dünyanın 185 ölkəsinin 57911 fiziki və hüquqi şəxsləri ilə ticarət əməliyyatları aparılmışdır. Bunların 48233 və yaxud 83,3%-i fiziki şəxslər ilə, 9588-i və yaxud 16,7%-i isə hüquqi şəxslərlə aparılmışdır. Hüquqi şəxslərlə aparılan ticarət əməliyyatlarının 9319-u və yaxud 97,2%-i özəl sektorun, 269-u və yaxud 2,8%-i dövlət sektorunun payına düşür.

Ümumiyyətlə, 2011-2022-ci illərə diqqət yetirsək, görərik ki, ən çox 2019-cu ildə 195 ölkə ilə, ən az isə 2011-ci ildə 149 ölkə ilə ticarət əməliyyatları aparılmışdır. 2020-ci ildə özündən əvvəlki 4 il ərzində ticarət əməliyyatları aparılan ölkələrin sayında azalmanın olmasına baxmayaraq, 2015-ci ildən etibarən xarici ticarət iştirakçılarının sayında davamlı olaraq artım olmuşdur. Belə ki, 2022-ci ildə ölkəmizlə xarici ticarət edən ölkələrin sayı 2016-cı ilə görə 0,5%, 2017-ci ilə görə 1,1%, 2019-cu ilə görə 5,4%, 2021-ci ilə görə 1,6% azaldığı halda, xarici ticarət iştirakçılarının sayı 2015-ci ilə görə 12,1 dəfə, 2020-ci ilə görə isə 1,1% artmışdır. Artım əsasən fiziki şəxslər üzrə olmuşdur. Fikrimizcə, ticarət əməliyyatları apardığımız ölkələrin həcmində azalmanı COVİD-19 pandemiyasının yaratdığı mənfi nəticələrlə əlaqələndirə bilərik. Həm də dünyada baş verən qlobal maliyyə böhranlarının nəticələri ilə əlaqələndirmək olar.

Pandemiyanın dünyaya sürətlə yayılması bütün ölkələrdə işgüzar fəaliyyətin nəzərəçarpacaq dərəcədə azalmasına, XTF-nin dayandırılmasına və ya hətta müəssisələrin bağlanmasına, məşğulluğun azalmasına, əhalinin gəlirlərinin azalmasına səbəb olmuşdur. Tələb və təklifin eyni vaxtda azalması istehsal, topdan və pərakəndə ticarətdə böhrana səbəb oldu və qlobal dəyər zəncirlərində məhsul və xidmətlərin hərəkət intensivliyini əhəmiyyətli dərəcədə azaldıb.

Diaqramdan göründüyü kimi, tədqiq olunan bütün dövrlər üzrə ixrac idxaldan çox olmuşdur. İxracın həcmi isə müxtəlif cür dəyişmişdir. İxracın ən yüksək həcmi 2022-ci ilə təsadüf etmişdir. Ən az isə 2015-ci ildə olmuşdur. 2022-ci ildə ixracın həcmi 38146,6 milyon ABŞ dolları olmuşdur ki, bu da 2015-ci ilə görə 73,8%, 2019-cu ilə görə 94,3%, 2020-ci ilə görə 2,7% dəfə, 2021-ci ilə görə isə 72,9% çoxdur.

***Diaqram.***

**2010-2022-ci illər ərzində ixrac və idxalın artım dinamikası, milyon ABŞ dolları ilə**




***Mənbə: DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilib [11]***

**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

İdxal da ən çox 2022-ci ildə müşahidə edilmişdir. Belə ki, 2022-ci ildə idxalın həcmi 14539,8 milyon ABŞ dolları olmuşdur ki, bu da 2010-cu ilə görə 2,2 dəfə, 2015-ci ilə görə 57,7%, 2016-cı ilə görə 71,3%, 2019-cu ilə görə 6,4%, 2020-ci ilə görə 35,5%, 2021-ci ilə görə isə 24,2% çoxdur. Qeyd edək ki, 2000-ci ildən 2022-ci ilədək bütün dövrlərdə xarici ticarət əməliyyatlarında müsbət saldo müşahidə edilmişdir. Yalnız 2003-cü ildə 35,8 milyon ABŞ dolları həcmində mənfi saldo olmuşdur.

XTƏ-də önəmli rol oynayan amillərdən biri də informasiya texnologiyalarıdır. İnformasiya texnologiyaları ölkə iqtisadiyyatının inkişafında və təhlükəsizliyinin təminatında da önəmli rola malikdir. İKT-nin yayılması və istifadəsi mal və xidmətlərin keyfiyyətini artırır, yeni iş yerləri yaradır, əhalinin yaşayış səviyyəsini və keyfiyyətini dəyişir [5, s.43].

XTƏ-nin genişləndirilməsi ilə çoxtərəfli hökumətlərarası təşkilatların, qurumların və sazişlərin inkişafı və bununla əlaqədar çoxtərəfli danışıqların aparılması ilə çoxtərəfli iqtisadi diplomatiya getdikcə daha çox önəm daşıyır. Çoxtərəfli iqtisadi diplomatiya, ilk olaraq, beynəlxalq hökumətlərarası təşkilatların işi, beynəlxalq iqtisadi əlaqələrin problemləri ilə bağlı diplomatik konfransların keçirilməsi, beynəlxalq iqtisadi danışıqlarda iştirak etməklə əlaqələndirilir.

XTƏ ölkənin iqtisadi təhlükəsizliyinin və iqtisadi diplomatiyasının səmərəli təşkilində önəmli rola malikdir. Çünki iqtisadi təhlükəsizlik və iqtisadi diplomatiya bütövlükdə ölkənin milli təhlükəsizliyinin təmin edilməsi üçün çox vacibdir və cəmiyyətin sosial və siyasi də daxil olmaqla bütün sahələrinin davamlı inkişafı üçün əlavə stimullar yaradır. Bundan əlavə, iqtisadi diplomatiya ölkənin milli maraqlarının qorunması baxımından da əhəmiyyətlidir.

İqtisadi təhlükəsizlik sistemində XTƏ-nin rolunun yüksəldilməsi üçün həmin sahədə müvafiq hüquqi bazanın olması şərtdir. İqtisadi təhlükəsizlik sistemində XTƏ-nin rolunun yüksəldilməsi üçün bu sahəni tənzimləyən qanunvericilik bazasında təkmilləşdirmələr də aparılmalı və onun beynəlxalq tələblərə uyğunlaşdırılması prosesləri sürətləndirilməlidir [3, s.74].

İqtisadi təhlükəsizliyin xarici ticarət sektorunda təmin edilməsi prosesi onun xüsusiyyətləri və istiqamətləri nəzərə alınmaqla reallaşdırılmalıdır. Bu baxımdan aşağıdakı istiqamətlərdə tədbirlərin görülməsi zəruridir:

- iqtisadiyyatın inkişafında əsas amil kimi dövlətin xarici iqtisadi mühitinin rasionallığını təhlil etmək;
- XTƏ-nin nəticələrinin ölkənin inkişaf göstəricilərinə təsir səviyyəsini müəyyənləşdirmək;
- iqtisadiyyatın təhlükəsizliyinin göstəricilərinin hədd dəyərlərini müəyyənləşdirmək;
- xarici mühit üçün daha təhlükəli təhdidləri müəyyənləşdirmək və s.

**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

## YEKUN

XTƏ-nin ölkənin iqtisadi təhlükəsizlik sistemində rolunu artırmaq üçün onun iqtisadi səmərəliliyini yüksəltmək lazımdır. XTƏ-nin səmərəliliyinin artırılması aşağıdakı yollarla mümkündür:

- ixrac olunan məhsulların çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi;
- ixracın əmtəə-coğrafi strukturunun yaxşılaşdırılması;
- beynəlxalq əməkdaşlığın mütərəqqi formalarından istifadə etməklə ixracın strukturunun təkmilləşdirilməsi;
- xarici ticarətin koordinasiyası və sənaye ixracının təşviqi və s.

İqtisadiyyatın inkişafı üçün ixracdan istifadə etmək məqsədəuyğundur ki, bu da investisiyaların stimullaşdırılması, diversifikasiyası və ixrac strukturunda innovativ məhsulların daha yüksək payının təmin edilməsi üçün alətlərin müəyyənləşdirilməsini tələb edir.

Yuxarıdakılar nəzərə alınmaqla Azərbaycanın XTƏ-nin səmərəliliyinin yüksəldilməsi və təkmilləşdirilməsi ölkə iqtisadiyyatının mal və xidmətlərinin beynəlxalq bazarda rəqabət qabiliyyətini artıracaq, bazar iqtisadiyyatının inkişafını sürətləndirəcək, ölkənin mövqeyini gücləndirmək üçün müxtəlif dövlətlər və ölkə qrupları ilə effektiv ticarət əlaqələri qurulacaqdır ki, bunlar da son nəticədə ölkənin iqtisadi təhlükəsizliyinin təminatında önəmli rol oynayacaqdır.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Əliquliyev R.M., Mahmudov R.Ş. İnformasiya iqtisadiyyatının təhlükəsizliyinin təmin edilməsi məsələləri. İnformasiya cəmiyyəti problemləri, №1(7), 2013, 3-13
2. Əliyev T.İ. Neft sənayesi və Azərbaycanın iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Gəncə, 2021, 32 s.
3. Mahmudova L.F., Osmanov İ.O. Ölkənin iqtisadi inkişaf prosesində beynəlxalq inteqrasiya əlaqələrinin rolu. Sumqayıt Dövlət Universitetinin Elmi xəbərlər, Sosial və humanitar elmlər bölməsi, cild 15, № 1, 2019, s. 72-75
4. Məmmədli M.M. Xarici ticarət və onun tənzimlənməsi zərurəti. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, 2020 (mart-aprel), s.105-112
5. Азизов Р.Н. Стратегия развития внешнеэкономических связей и экономическая безопасность Азербайджана / Р. Н. Азизов // Экономическая безопасность социально-экономических систем: вызовы и возможности: сборник трудов III Международной научно-практической конференции, Белгород, 22 апреля 2021 года. – Белгород: ООО "Эпицентр", 2021. – С. 41-44
6. Алиджанов Д.А. Механизмы внешнеторговой политики в стимулировании импортозамещающего роста. Вестник ТГУПБП. 2015, № 3 (3). С.17-26.
7. Гетман И.Б. Особенности и угрозы экономической безопасности государства в сфере внешней торговли. Столыпинский вестник- 2, 2020, с.193-208
8. Курдова, М.А. Внешняя торговля как основная форма международных экономических отношений / М. А. Курдова, А. А. Юрин // E-Scio. – 2019. – № 4(31). – С. 432-438
9. Матвеева, Е.Е. Экономическая безопасность в сфере внешнеэкономической деятельности / Е.Е.Матвеева // Вестник Университета Российской академии образования. – 2020. – № 1. – С. 12-26
10. https://www.e-derslik.edu.az/noduploads/vet_pdf/idxal-ixrac.pdf
11. https://www.stat.gov.az/source/trade/
12.https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda

**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

*Nigar Eldar Talibova,*
*Ph.D. Student,*
*Baku State University,*
*E-mail: dosent1966@mail.ru*
*© N.E. Talibova, 2023*

# EXPANDING FOREIGN TRADE RELATIONS AND INCREASING ITS ROLE IN THE ECONOMIC SECURITY SYSTEM OF THE COUNTRY

## A B S T R A C T

**The purpose of the research** - is to expand foreign trade relations and determine the role of these relations in the country's economic security system.

**The methodology of the research** - is a review of the country's various approaches to the expansion of foreign trade, the study of the current situation in this area using economic-mathematical, statistical, scientific-abstract, factor analysis and other methods of analysis.

**The practical importance of the research** - the results obtained as a result of the study can be significant in terms of increasing the role of foreign economic relations in the country's economic security system.

**The results of the research** - it is advisable to take measures to expand the range and quality of exported products, improve the commodity-geographical structure of exports, improve the structure of exports using advanced forms of international cooperation, coordinate foreign trade and promote industrial exports, etc.

**The originality and scientific novelty of the research** - the research work took into account the opinions of a number of domestic and foreign researchers, recommendations were put forward to expand foreign trade relations and increase the role of these relations in the country's economic security system.

**Keywords:** economic security, foreign trade, import, export, foreign trade relations (FTR), foreign economic activity (FTA), production.

**AUDİT 2023, 3 (41), səh. 85-96.**
**AUDIT 2023, 3 (41), pp. 85-96.**
**АУДИТ 2023, 3 (41), стр. 85-96.**

*Талыбова Нигяр Эльдар кызы,*
*докторант,*
*Бакинский Государственный Университет,*
*E-mail: dosent1966@mail.ru*
*© Талибова Н.Э., 2023*

# РАСШИРЕНИЕ ВНЕШНЕТОРГОВЫХ СВЯЗЕЙ И ПОВЫШЕНИЕ ЕЕ РОЛИ В СИСТЕМЕ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ СТРАНЫ

## Р Е З Ю М Е

**Цель исследования** - заключается в расширении внешнеторговых связей и определении роли этих связей в системе экономической безопасности страны.

**Методологией исследования** является обзор различных подходов страны к расширению внешней торговли, изучение текущей ситуации в этой сфере с использованием экономико-математических, статистических, научно-абстрактных, факторного анализа и других методов анализа.

**Практическая значимость исследования** - результаты, полученные в результате исследования, могут быть значимы с точки зрения повышения роли внешнеэкономических связей в системе экономической безопасности страны.

**Результаты исследования** – целесообразно принять меры относительно расширения ассортимента и качества экспортируемой продукции, улучшения товарно-географической структуры экспорта, совершенствования структуры экспорта с использованием передовых форм международного сотрудничества, координации внешней торговли и содействия промышленному экспорту и т.д.

**Оригинальность и научная новизна исследования** - в исследовательской работе учтены мнения ряда отечественных и зарубежных исследователей, выдвинуты рекомендации по расширению внешнеторговых связей и повышению роли этих связей в системе экономической безопасности страны.

**Ключевые слова:** экономическая безопасность, внешняя торговля, импорт, экспорт, внешнеторговые связи (ВТС), внешнеэкономическая деятельность (ВТД), производство.

*Məqalə redaksiyaya daxil olmuşdur: 21.07.2023*
*Təkrar işləməyə göndərilmişdir: 02.08.2023*
*Çapa qəbul olunmuşdur: 09.08.2023*

*The date of the admission of the article to the editorial office: 21.07.2023*
*Send for reprocessing: 02.08.2023*
*Accepted for publication: 09.08.2023*

*Дата поступления статьи в редакцию: 21.07.2023*
*Отправлено на повторную обработку: 02.08.2023*
*Принято к печати: 09.08.2023*